# MÜBARİZ KEŞİKDƏ

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

20 sentyabr 2018-ci il

Cümə axşamı

№ 37 (3401)

Qiymətı 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# BAKI ŞƏHƏRİNİN AZAD EDİLMƏSİNİN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ MÖHTƏŞƏM PARAD KEÇİRİLİB

## *PREZİDENT İLHAM ƏLİYEV VƏ PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞAN PARADDA İŞTİRAK EDİBLƏR*

Sentyabrın 15-də Azərbaycan paytaxtının Azadlıq meydanında Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva paradda iştirak ediblər.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Azərbaycan və Türkiyə prezidentlərinə raport verib .

Dövlət başçıları əsgərləri salamlayıblar.

Hərbi orkestr Türkiyənin və Azərbaycanın dövlət himnlərini ifa edib.

Sonra sözləri görkəmli Azərbaycan şairi Əhməd Cavada, musiqisi dahi bəstəkar Üzeyir Hacıbəyliyə məxsus “Çırpınırdın Qara dəniz” mahnısı səsləndirilib. Daha sonra ölməz sənətkar Müslüm Maqomayevin ifasında məşhur “Azərbaycan” mahnısının sədaları “Azadlıq” meydanına yayılıb.







Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış ediblər.

Dövlət başçılarının çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi başlanıb. Qarnizonun birlik, birləşmə, hərbi hissə, dövlət xidmətləri və xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən parad heyətləri tribunaya doğru irəliləyib. Qarşıda Azərbaycan Respublikasının dövlət bayrağı, onun ardınca isə Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları gətirilib.

2016-cı ilin aprelində Füzuli, Cəbrayıl, Ağdərə, Tərtər rayonlarında və bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında bir çox strateji yüksəklikləri azad edərək min hektarlarla ərazinin nəzarətə götürülməsində xüsusilə fərqlənən hərbi hissələrin döyüş bayraqları da bugünkü parada gətirilib.

Ulu öndər Heydər Əliyevin 1971-ci ildə yaratdığı Cəmşid Naxçıvanski adına hərbi liseyin, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantlarından, Bakı Qarnizonu zabitlərindən ibarət parad heyəti tribunanın önündən keçiblər.

Meydana Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları, Əməliyyat İmkanları Konsepsiyası və Əməliyyat Ehtiyatları taborlarını təmsil edən parad heyəti, Xüsusi Təyinatlı Qüvvələrin və Dəniz Piyadaları bölmələrinin, Dövlət Təhlükəsizliyi Xidmətinin, Dövlət Sərhəd Xidmətinin, Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının hərbi qulluqçuları daxil olublar.

Daha sonra Bakı Qarnizonunun birlik, birləşmə və hərbi hissələrinin xüsusi texnikaları və silah sistemlərinin keçidi olub.

Türkiyə Silahlı Qüvvələrinin məşhur “Mehtəran” birliyi “Mehtər marşı”nın sədaları altında Azadlıq meydanına daxil olub. “Mehtəran” birliyi tribuna ilə üz-üzə dayanaraq “Əsgər marşı”nı ifa edib.

Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Osmanlı Türkiyəsi və Azərbaycanın milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin dövlət bayraqları altında tribuna önündən keçiblər.

Azadlıq meydanı üzərindən Azərbaycan Hərbi Hava Qüvvələrinin döyüş helikopterləri və təyyarələrinin, Türkiyə Silahlı Qüvvələrinin “Türk Ulduzları”nın uçuşları olub.

# TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ RƏCƏB TAYYİB ƏRDOĞANIN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

Türkiyə Respublikasının Prezidentinin rəsmi qarşılanma mərasimi olub.

Sentyabrın 15-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə təkbətək görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad ediblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də Şəhidlər xiyabanını ziyarət ediblər.

Azərbaycan və Türkiyə prezidentləri Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə əklillər qoyublar.

Dövlət başçıları Xatirə kitabına ürək sözlərini yazıblar.

Sentyabrın 15-də Bakının azad olunmasının 100 illiyi ilə bağlı keçirilən təntənəli paraddan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısına gəliblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Qız qalasının qarşısında paradda iştirak edən əsgərlərlə görüşüblər, onlarla xatirə şəkilləri çəkdiriblər.

Burada əllərində Azərbaycanın və Türkiyənin dövlət bayraqlarını tutmuş Bakı sakinləri və şəhərimizin qonaqları Prezident İlham Əliyevi və Prezident Rəcəb Tayyib Ərdoğanı böyük coşqu ilə qarşılayıblar.

Dövlət başçıları paytaxt sakinləri ilə xatirə şəkilləri çəkdiriblər.

Daha sonra Azərbaycan və Türkiyə prezidentləri Bakı bulvarını gəziblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan sentyabrın 15-də birgə işçi nahar ediblər.

Dövlət başçıları Dağüstü parkdan Bakının mənzərəsini seyr ediblər.

Türkiyə Prezidentinin Azərbaycana rəsmi səfəri sentyabrın 15-də başa çatıb.



***Xəbər verildiyi kimi, Azərbaycan Polisinin yaranmasının 100 illiyi münasibətilə, Azərbaycan Respublikasında ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 29 iyun tarixli sərəncamı ilə daxili işlər naziri, general-polkovnik Ramil Usubov 1-ci dərəcəli «Vətənə xidmətə görə» ordeni ilə təltif edilmişdir.***

***Sentyabrın 19-da möhtərəm cənab Prezident İlham Əliyev yüksək dövlət mükafatını - 1-ci dərəcəli «Vətənə xidmətə görə» ordenini daxili işlər naziri, general-polkovnik Ramil Usubova təqdim etmişdir.***

# ƏSRİN HADİSƏSİ MÜQAVİLƏSİ

Dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə, xarici təcavüz, siyasi-iqtisadi böhranla üzbəüz qaldığımız dövrdə ölkənin xilası naminə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ulu öndər dərin zəkası, müdrik siyasəti, zəngin idarəçilik təcrübəsi ilə dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas etdi. Bütün həyatını Azərbaycana xidmətə həsr edən, xalqımızı xoşbəxt gələcəyə aparmağı özünün başlıca məqsədi hesab edən və bunun üçün var gücünü sərf edən ulu öndər Heydər Əliyev dövlətçilik tariximizdə yeni bir eranın-yüksəliş, inkişaf, sabitlik erasının əsasını qoydu...

*Bax səh.2.*

***Sentyabrın 16-da Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin N saylı hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

***Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.***

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 18-də Masallı və Biləsuvar rayonlarına səfər edərək bir sıra sosial-mədəni obyektlərin, Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yolunun açılışlarında iştirak edib.**

***Ətraflı gələn sayımızda.***

**Dövlətimizin başçısı sentyabrın 14-də milli bayram – Müstəqillik Günü münasibətilə Meksika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Enrike Penya Nietoya təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Sentyabrın 14-də Azərbaycan Prezidenti İlham Əliyev TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyaneni qəbul edib.***

❖❖❖❖❖

**Sentyabrın 14-də ölkəmizin rəhbəri Azərbaycan Respublikasında milli mətbuatın inkişafındakı xidmətlərinə görə Bəxtiyar Yusif oğlu Sadıqovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də “Azərbaycan” qəzeti əməkdaşlarının mükafatlandırılması haqqında sərəncamlar imzalayıb.***

❖❖❖❖❖

**Dövlətimizin başçısı sentyabrın 14-də “Azərbaycan” qəzetinin kollektivini qəzetin 100 illik yubileyi münasibətilə təbrik edib.**

❖❖❖❖❖

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 14-də Çili Respublikasının milli bayramı-Müstəqillik Günü münasibətilə Prezident zati-aliləri cənab Sebastian Pinyeraya təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Sentyabrın 17-də dövlətimizin başçısı Çin Xalq Respublikasının Sinxua Xəbər Agentliyinin baş redaktoru Hi Pinqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Sentyabrın 18-də dövlətimizin başçısı Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Cavid Qənbər oğlu Qurbanovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

# QOY, HƏMİŞƏ GÜNƏŞ DOĞSUN, SÜLH OLSUN!

İndi dünyada yüz milyonlarla insanın dərin ürək çırpıntısı, böyük ümid, şirin arzularla təkrar etdiyi munis bir söz var – Sülh!

Bu sözün dərin mənası qanlı müharibələrin bütün dəhşətlərini, faciəsini yaşamış insanlar üçün daha dəyərlidir, daha yaxındır. O, həm də Ana sözü kimi sadə, Həyat sözü kimi şirin, Azadlıq sözü kimi qiymətlidir...

*Bax səh.3.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**Sentyabrın 15-də Daxili İşlər Nazirliyində “Cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində bayır xidmətinin fəaliyyətinin təşkili üzrə görülən işlər”in və “Təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışı”nın vəziyyətinə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**



Daxili işlər naziri, general-polkovnik Ramil Usubov müzakirəyə çıxarılan məsələlərin əməliyyat-xidməti fəaliyyətin mühüm sahələrini əhatə etdiyini, habelə insanların həyatının, sağlamlığının, qanuni mənafelərinin, hüquq və azadlıqlarının etibarlı qorunması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. O da qeyd olunub ki, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi sahəsində həyata keçirilən tədbirlər cari ilin ötən dövründə də bütövlükdə qənaətbəxş olub, əvvəlki dövrlərin müsbət təmayülləri daha da inkişaf etdirilib.

Gündəlikdəki birinci məsələ barədə məruzə ilə çıxış edən Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi, polis general-mayoru Oqtay Kərimov bildirib ki, ölkədə aparılan hüquqi islahatlar çərçivəsində bayır xidmətlərinin də fəaliyyətinin təkmilləşdirilməsi, cinayətkarlığa qarşı mübarizədə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsində rolunun artırılması daim Nazirliyin rəhbərliyinin diqqət mərkəzində olub. Cari ilin 8 ayı ərzində ictimai yerlərdə hüquqpozmaların profilaktikası sahəsində həyata keçirilən tədbirlər çərçivəsində müxtəlif inzibati xəta törətdiklərinə görə Post-Patrul xidmətinin əməkdaşları tərəfindən 18.303 şəxs saxlanılaraq qanunla müəyyən edilmiş qaydada məsuliyyətə cəlb olunub. Yol hərəkəti qaydalarını pozan piyadalar barədə 3.138 protokol tərtib edilib. İctimaiyyətlə əlaqələrin möhkəmləndirilməsinə, Polisə İctimai Dəstək üzvlərinin fəaliyyətinin səmərəli təşkilinə önəm verildiyi də diqqətə çatdırılıb.



Gündəlikdəki ikinci məsələ barədə məruzə ilə çıxış edən Baş Cinayət Axtarışı İdarəsinin rəisi, polis general-mayoru Arzu Daşdəmirov qeyd edib ki, məhkəmə, istintaq və təhqiqat orqanlarından yayınan təqsirləndirilən şəxslərin yerinin müəyyən edilərək tutulması istiqamətində görülən işlər, öz növbəsində əmələ görə cəzanın labüdlüyü prinsipinin reallaşması, cinayətlər nəticəsində vurulmuş ziyanın ödətdirilməsi, zərərçəkmişlərin pozulmuş hüquqlarının bərpası, axtarışa elan olunanların təkrar cinayətlərinin qarşısının alınması, bütövlükdə vətəndaş məmnunluğunun təmin edilməsi kimi vacib məsələlərin həllinə xidmət edir. Bu baxımdan, əməliyyat şəraitinə və cinayətlərin açılmasına əhəmiyyətli təsiri baxımından təqsirləndirilən və xəbərsiz itkin düşmüş şəxslərin axtarışının vəziyyəti daim diqqət mərkəzində saxlanılıb, Kollegiya iclaslarında və əməliyyat müşavirələrində müzakirə olunaraq fəaliyyətin daha da yaxşılaşdırılması üçün qərarlar qəbul edilib. Cari ilin 8 ayında ölkə üzrə axtarılan şəxslərin tapılıb tutulması sahəsində fəaliyyətin nəticələri ötən ilin analoji dövrü ilə müqayisədə 4,4 faiz yaxşılaşıb.

Məruzələr ətrafında çıxış edən şəhər, rayon polis orqanlarının rəisləri görülmüş işlərdən, əməliyyat-xidməti fəaliyyətdə yol verilmiş nöqsan və çatışmazlıqlardan, onların aradan qaldırılması yollarından danışıblar.

İclasa yekun vuran nazir gündəlikdəki məsələlər üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirdiyi hüquq-mühafizə siyasəti sayəsində ölkəmizdə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini sahələrində əldə olunan uğurları xatırladaraq, hər bir əməkdaşın bu ali diqqətə layiqli əməyi ilə cavab verməsinin vacibliyini vurğulayıb. Həmçinin ölkə Prezidentinin vətəndaş məmnunluğunun təmin edilməsinə dair tapşırıq və tövsiyələrinə bir daha diqqəti çəkərək ərazi polis orqanlarının rəislərindən vətəndaşların müraciətlərinə həssaslıqla yanaşılmasını, bütün araşdırmaların keyfiyyətlə və operativ aparılaraq qaldırılan məsələlərin yerində qanuni həlli üçün səylərin gücləndirilməsinin və tapşırılmış sahəyə məsuliyyətin artırılmasını tələb edib. Eyni zamanda, xüsusən fəaliyyətdə mövcud olan nöqsanların qısa müddətdə aradan qaldırılmasını tələb edib, bu istiqamətdə konkret tapşırıq və tövsiyələrini verib.

Nazir general-polkovnik Ramil Usubov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevi əmin edib ki, şəxsi heyət qanunvericiliklə müəyyən olunmuş vəzifələrin, qarşıya qoyulmuş tapşırıqların öhdəsindən bundan sonra da layiqincə gələcək, sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması işində qüvvə və bacarığını əsirgəməyəcək, bu ili də müsbət nəticələrlə başa vuracaq.

*15 sentyabr 2018-ci il.*

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2018-ci il sentyabr ayının 29-da saat 10:00-da Lənkəran Şəhər-Rayon Polis Şöbəsində Lənkəran, Cəlilabad, Masallı, Astara, Yardımlı, Lerik şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# ZORAKILIĞA “YOX” DEDİLƏR

**Sentyabrın 18-də Daxili İşlər Nazirliyinin “Xəzri” İstirahət və Sağlamlıq Mərkəzində Avropa Polis Kollecləri Assosiasiyasının və DİN-in Polis Akademiyasının təşkilatçılığı ilə “Ailə-məişət zorakılığı” mövzusunda beynəlxalq elmi-praktiki konfrans keçirildi.**

**Tədbiri giriş sözü ilə açan respublika daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov konfrans iştirakçılarını nazir, general-polkovnik Ramil Usubovun adından salamlayaraq belə bir aktual mövzuya həsr olunmuş tədbiri ölkəmizdə təşkil etdiyinə görə Avropa Polis Kollecləri Assosiasiyasının prezidenti cənab Norbert Leitnerə və təşkilatın idarə heyətinə təşəkkürünü bildirdi.**




Polis general-leytenantı Vilayət Eyvazov məişət zorakılığı, o cümlədən qadınlara və yetkinlik yaşına çatmayanlara qarşı cinayətlərin fundamental insan hüquqlarını pozan ciddi bir problem olduğunu diqqətə çatdırdı ailə-məişət zorakılığının qarşısının alınması sahəsində beynəlxalq əməkdaşlığın güclənməsinə, qabaqcıl təcrübənin öyrənilməsinə və tətbiqinə xidmət edən hazırki konfransın əhəmiyyətini xüsusi vurğuladı. Qeyd olundu ki, hələ 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası gender bərabərliyini bəyan etməklə, demokratik dövlət quruculuğu prosesində qadınların fəal iştirakının zəruriliyini təsdiqləmişdir. Həmin il ölkəmiz BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya”sına qoşularaq bu beynəlxalq sənədin müddəalarının yerinə yetirilməsi, qadınların hüquqlarının müdafiəsi ilə bağlı zəruri şəraitin yaradıması öhdəliklərini öz üzərinə götürmüşdür. Ötən müddət ərzində ailənin, qadınların cəmiyyətdə rolunun artırılmasında, məişət zorakılığının qarşısının alınmasında, gender balansının təmin edilməsində dövlətin və qeyri-hökumət təşkilatlarının səylərinin gücləndirilməsi üçün bütün zəruri təşkilatı tədbirlər görülmüş, mükəmməl qanunvericilik bazası formalaşdırılmışdır.

Məişət zorakılığının profilaktikası Azərbaycan daxili işlər orqanlarının da əsas vəzifələrindən olmaqla bu istiqamətdə sistemli tədbirlərin həyata keçirildiyini deyən nazirin birinci müavini son beş ildə məişət zəminində törədilən cinayətlərin 1,2 dəfə, zorakı cinayətlərin 19 faiz azaldığını, baş vermiş cinayətlərin 100 faiz açıldığını diqqətə çatdırdı.

Avropa Polis Kollecləri Assosiasiyasının prezidenti Norbert Leitner yüksək qonaqpərvərliyə və səmimi münasibətə görə DİN rəhbərliyinə təşəkkür edərək ölkəmizdə təşkilatın bununla ikinci görüşünün keçirildiyini dedi. O, bu tədbirin beynəlxalq elmi-praktiki əməkdaşlığın möhkəmlənməsində, ailə-məişət zorakılığına qarşı mübarizədə, tədris-təlim prosesinin strategiyasının müəyyənləşdirilməsində, Assosiasiyaya üzv olan dövlətlərin qabaqcıl təcrübəsinin tədris prosesinə tətbiqi sayəsində yüksək ixtisaslı kadrların hazırlanmasına öz töhfəsini verəcəyini diqqətə çatdırdı.

Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev Avropa Polis Kollecləri Assosiasiyasınına üzv olduqları illərdə onun təşəbbüsü ilə keçirilən konfranslardan həmişə müsbət təcrübə əldə edildiyini, onun tədris-təlim prosesində tətbiqinə nail olduqlarını, burada təmsil olunan təhsil müəssisələri ilə daim təcrübə mübadiləsinin həyata keçirildiyini və gələcəkdə də bu istiqamətdə işlərin intensivləşəcəyini dedi.

Sonra mövzu ətrafında çıxışlar oldu.

*****

Avropa Polis Kollecləri Assosiasiyasının üzvləri iki günlük səfər çərçivəsində beynəlxalq elmi-praktik konfransın mövzusuna uyğun fikir mübadiləsi aparmış, öz ölkələrinin təcrübələrini bölüşmüş, yerli qanunvericilikıləri barədə məlumat vermişlər. Assosiasiya Şurasının DİN-in Polis Akademiyasında iclası da keçirilmiş, görüləcək işlər barədə çıxışlar dinlənilmişdir.

Daha sonra qonaqlar paytaxtımızın gəzməli-görməli yerləri ilə tanış olmuşlar.

***Məlumat üçün: Avropa Polis Kollecləri Assosiasiyası 1996-cı ildə təsis edilib, quruma Azərbaycan Respublikası DİN-in Polis Akademiyası da olmaqla 47 Avropa ölkəsindən 50-ə yaxın ali təhsil müəssisəsi daxildir.***

# ƏSRİN HADİSƏSİ MÜQAVİLƏSİ

**Dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə, xarici təcavüz, siyasi-iqtisadi böhranla üzbəüz qaldığımız dövrdə ölkənin xilası naminə xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdan ulu öndər dərin zəkası, müdrik siyasəti, zəngin idarəçilik təcrübəsi ilə dövlətçiliyimizi məhv olmaq təhlükəsindən xilas etdi. Bütün həyatını Azərbaycana xidmətə həsr edən, xalqımızı xoşbəxt gələcəyə aparmağı özünün başlıca məqsədi hesab edən və bunun üçün var gücünü sərf edən ulu öndər Heydər Əliyev dövlətçilik tariximizdə yeni bir eranın-yüksəliş, inkişaf, sabitlik erasının əsasını qoydu.**



1991-1992-ci illərdə dövlət idarəçiliyində boşluqlar və hakimiyyətdəki qüvvələrin naşılığı ucbatından ölkəmizdə bütün istiqamətləri əhatə edən dərin böhran meydana gəlmişdi. Bu da azmış kimi, hakimiyyyətdə təmsil olunan məmurların hər biri silahlı qruplaşma formalaşdıraraq öz şəxsi mənafeləri üçün dövlətin və xalqın maraqlarını qurban verməyə hazır idilər. Vəziyyət getgedə pisləşir, iqtisadiyyatın bütün sahələri sıradan çıxır, siyasi gərginlik artır, mənəvi aşınma baş verirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ən qızğın həddə çataraq, düşmənin işğal etdiyi rayonların sayı artırdı. Xarici qüvvələr isə səbirsizliklə parçalanmağa doğru gedən Azərbaycandan pay almaq üçün fürsət gözləyirdilər.

Zəngin təbii və iqtisadi sərvətlərə malik olan ölkələrdə müstəqilliyin qorunub-saxlanması bəzən onun əldə edilməsindən daha çətin olur.

Bu danılmaz fakdır ki, məhz ulu öndər Heydər Əliyevin müdrikliyi, uzaqgörən siyasəti və gərgin fəaliyyəti nəticəsində, ağır şərtlərə baxmayaraq, ölkəmiz müstəqilliyini qoruyub-saxlaya bildi. Dövlətimizin sosial-iqtisadi inkişafı və dünya iqtisadiyyatına inteqrasiyası sahəsində çox böyük nailiyyətlər əldə olundu. Cəbhədə atəşkəsin elan olunması daxili situasiyanın daha çox nəzarətə götürülməsinə şərait yaratdı. Silahlı qruplaşmaların qeyri-qanuni fəaliyyətlərinə son qoyuldu və hüquqi dövlət quruculuğu prosesinin sürətlənməsi üçün geniş meydan açıldı. Həmçinin Azərbaycanın sosial-iqtisadi inkişafında yeni mərhələnin təməli qoyuldu, yüksək iqtisadi artım üçün əsaslı zəmin yaradıldı. Azərbaycan Respublikasının demokratik inkişaf yolu ilə inamla irəliləməsi üçün ölkəmizdə zəruri olan təsisatlar və hüquqi baza formalaşdı. Azərbaycanın Silahlı Qüvvələri qüdrətli bir orduya çevrildi.

Ulu öndərin parlaq siyasi zəkası sayəsində iki əsrin və iki minilliyin qovuşuğundakı Azərbaycan öz milli-mənəvi dəyərlərini, dövlətçiliyini, müstəqilliyini qoruyaraq, üçüncü minilliyə qədəm qoydu.

Və Azərbaycan öz böyük sərvəti olan neftin dünya bazarlarına çıxarılması ilə bağlı qərar qəbul etdi. Lakin bu qərarın icrası da asan başa gəlmədi, çünki bəzi xarici qüvvələr ölkəmizin sahib olduğu zəngin neft ehtiyatlarını əldə etmək üçün mübarizə aparırdılar. Hətta bir çox xarici neft şirkətləri, onları dəstəkləyən hökumətlər, beynəlxalq maliyyə qurumları gözləyirdilər ki, bu böhrandan çıxış olaraq, təcili maliyyə yardımına ehtiyacı olan dövlətimiz Azəri-Çıraq-Günəşli neft yataqlarına dair kontaktın imzalanmasını məcburiyyət qarşısında tezləşdirəcək. Ancaq hadisələrin inkişafı onların yanıldığını göstərdi. Ulu öndərimiz ölkənin təhlükəsizliyini təminat altına almaq məqsədilə xarici neft şirkətləri ilə danışıqları faktiki olaraq dayandırdı. O zaman çoxlarına qəribə görünən bu qərar, əslində böyük dövlət xadimi ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinə, zəngin dövlətçilik təcrübəsinə söykənirdi. Bir neçə aydan sonra isə bu qərarın yerində qəbul olunduğu öz təsdiqini tapdı.

***1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında Xəzərin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında “məhsulun pay bölgüsü” tipli müqavilə imzalandı.***

***Müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” adlanmış, təxminən 400 səhifə həcmində və 4 dildə öz əksini tapmışdı. "Əsrin müqaviləsi"ndə dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti iştirak etmişdir.***

**Ardı var.**

***Aytəkin Nəcəfova,***
***polis polkovnik-leytenantı***



**İndi dünyada yüz milyonlarla insanın dərin ürək çırpıntısı, böyük ümid, şirin arzularla təkrar etdiyi munis bir söz var – Sülh!**

Bu sözün dərin mənası qanlı müharibələrin bütün dəhşətlərini, faciəsini yaşamış insanlar üçün daha dəyərlidir, daha yaxındır. O, həm də Ana sözü kimi sadə, Həyat sözü kimi şirin, Azadlıq sözü kimi qiymətlidir.

Rəngindən, dini etiqadlarından asılı olmayaraq, yüz milyonların sülhü qorumaq, yeni qanlı müharibələri önləmək üçün çəkdikləri zəhmət də müqəddəs amala, məqsədə xidmət edir.

Sülh həyat, yaşamaq rəmzinə çevrilərək insanların arzu etdiyi və can atdığı bütün müsbət keyfiyyətləri özündə birləşdirən bəşəri bir məfhumdur. Ona görə də dünya ölkələri-

# QOY, HƏMİŞƏ GÜNƏŞ DOĞSUN, SÜLH OLSUN!

nin yekdil qərarı ilə ***BMT 1981-ci il 21 sentyabr tarixinin Beynəlxalq Sülh Günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir.*** Bu əlamətdar günün əhəmiyyəti zaman keçdikcə, münaqişə ocaqları alovlandıqca üzə çıxır.

21 sentyabr tarixi nəinki xalqlar arasında, həmçinin ailələrdə, məktəblərdə, ictimaiyyətdə münasibətlərin sağlamlaşmasına, zorakılığa qarşı mübarizənin gücləndirilməsinə nail olmaq üçün bir fürsətdir.

İçimizdə olan bəşəri sevgini əməllərimizlə üzə çıxarsaq, o zaman dünya daha yaşanmalı və daha da gözəl olar.

***Qoy, həmişə sülh olsun. Sülh, əmin-amanlıq davamlı və daimi olsun.***

***Qoy, analar dərd görməsin, körpələr ac qalmasın, göz yaşları olmasın. Kimi oğulsuz, kimi atasız, kimi qardaşsız, doğmalar əzizlərsiz qalmasın. Müharibə olmasın!***

*R.Əliyeva,*
*polis leytenantı*

# BİZ SÜLH İSTƏYİRİK

**Beynəlxalq Sülh Günü sülh şəraitində yaşamaq hüququ ilə yanaşı bütün insan hüquq və azadlıqlarının gerçəkləşməsini, xoşbəxt gələcək naminə yalnız sülh şəraitində çatmağın mümkünlüyünü təcəssüm etdirir.**

Sülh müqavilələrlə, danışıqlarla gəlir, bütün müharibələr sülhlə bitir. Amma nə yazıq ki, biz bunu da doya-doya yaşamamışıq. Bizi "Sülh" deyilən müqavilə və razılaşmalarla parçalayıblar, iki yerə bölüblər. Tarixən "Gülüstan", "Türkmənçay" sülh müqavilələri, əslində, heç də xalqımızın, dövlətimizin mənafeyinə xidmət etmədi.

Beynəlxalq Sülh Gününün dəyəri bizim üçün Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinin həllindən keçir. Sülh mövzusu bu gün torpaqlarımızın 20 faizi işğal altında olan, bir milyondan çox qaçqın və köçkünü olan dövlətimiz üçün xüsusi əhəmiyyət kəsb edir.

1994-cü ildən tərəflər arasında atəşkəs rejimi elan olunsa da, buna birtərəfli qaydada əməl edilir. Düşmən hələ də bu müqavilənin şərtlərini pozmaqla davam edir.

***Biz sülh istəyirik, bizim bütövlüyümüzə, bizim qələbəmiz və sevincimizə səbəb olası sülh.***

***Müdrik sərkərdəmizin, xalqımızın iradəsi və qüdrəti ilə bu tarixi ədalətsizliyə son qoyulacaq bir gün.***

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# AZƏRBAYCAN POLİSİ
## OLACAQLARINA AND İÇDİLƏR

**Sentyabrın 13-də bu il Polis Akademiyasına qəbul olunmuş və ilkin hərbi hazırlığı başa vurmuş kursantların andiçmə mərasimi keçirilib.**

Əvvəlcə ulu öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, həmçinin xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsi bir dəqiqəlik sükutla yad edildi.



Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirildi.

Daha sonra Polis Akademiyasının bayrağı sıra meydanına gətirildi. Kursantlar and içmək üçün tağımlarla öz yerlərini tutdular.

Kursantlar adından çıxış edən Fərid Rzayev bildirdi ki, bu gün onların həyatında ən əlamətdar günlərdən biridir və bu anlar çətin, məsuliyyətli, həm də çox şərəfli polis sıralarına ilk qədəmlərini qoymaq hüququ qazanan hər bir gənc üçün qürurvericidir.



Valideynlər adından çıxış edən polis veteranı Mirqasım Cəfərov belə təntənəli mərasimlərdə valideynlərin də iştirakının ənənə halını aldığını vurğuladı və dedi ki, bu gün ölkənin ən aparıcı təhsil ocaqlarından biri olan Polis Akademiyasında təhsil almaq həm də yüksək məsuliyyətlidir, peşəkar polis kadrlarının yetişməsi üçün ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan və DİN-in şəxsi heyətinin həyatında böyük dəyişikliklərlə yadda qalan müvafiq fərman və sərəncamların verilməsi möhtərəm dövlət başçımızın daxili işlər orqanlarına olan ali diqqət və qayğısının göstəricisidir.

Polis Akademiyasının rəisi, polis general-mayoru Nazim Əliyev kursantları, onların valideynlərini salamladı, daxili işlər naziri, general-polkovnik Ramil Usubovun təbrikini və ən xoş arzularını mərasim iştirakçılarına çatdırdı.

Qeyd olundu ki, ulu öndərin qayğısı ilə inkişaf yoluna çıxan bu təhsil ocağı da ölkə və DİN rəhbərliyinin xüsusi diqqəti və tələbkarlığı sayəsində tərəqqi dövrünü yaşayır. Akademiyada aparılan geniş abadlıq və quruculuq işləri, həmçinin yeni tədris korpusunun, əlavə dərs və məşğələ otaqlarının tikilməsi sevindirici haldır. Məhz yaradılan şəraitin nəticəsidir ki, akademiyanın təmsilçiləri respublika və beynəlxalq səviyyəli bilik və idman yarışlarında uğurlara imza atırlar. Yaradılmış şərait kursantların yaxşı oxumasına, asudə vaxtlarının səmərəli keçməsinə, eləcədə gələcəyimiz olan gəncliyimizin sağlam inkişafına yönəlmişdir.

Diqqətə çatdırıldı ki, təhsil ocağı beynəlxalq əməkdaşlıq sahəsində də nailiyyətlər əldə edir. Bir çox nüfuzlu tədbirlərdə fəal iştirak edən müəllim-professor heyəti kifayət qədər təcrübə əldə etmişdir və bunun nəticəsi olaraq, onlar artıq ekspert qismində müxtəlif ölkələrə dəvət olunurlar.

2018-ci ilin həm ölkəmizin, həm də daxili işlər orqanlarının həyatında yaddqalan bir il olduğunu bildirən Nazim Əliyev bu ilin ölkə başçısının sərəncamı ilə "Cümhuriyyət ili" elan olunduğunu, həmçinin Azərbaycan Polisinin yaradılmasının 100 illiyinin təntənəli şəkildə qeyd edildiyini də keçmişimizə, tariximizə sayğının bariz nümunəsi olduğunu dedi.

Polis general-mayoru N.Əliyev əmin olduğunu bildirdi ki, bu gün and içən hər bir gənc öz şəxsi nümunəsi ilə polisin cəmiyyətdəki nüfuzunun daha da artmasına çalışacaq, onun şanlı ənənələrinə layiq olacaq, etimadı və inamı doğruldacaqdır.

Akademiya rəisi kursantlara dövlətə, dövlətçiliyə və xalqa hər zaman sədaqətli olmağı, hüquqi bilikləri incəliklərinə qədər öyrənməyi, öz xələfləri kimi üçrəngli bayrağımızı ucalara qaldırmağı tövsiyə etdi.

Daha sonra tədbir şəxsi heyətin təntənəli keçidi ilə başa çatdı.

Yeri gəlmişkən, o gün daha 150 gənc Polis andı içdi.

*Publisistika bölməsi*

# BİR ÖMÜRLÜK XATİRƏ...

**Bu gün respublikamızın hər bir guşəsinə səpələnsələr də onları birləşdirən bir ad var-Polis Akademiyasının məzunu.**

**O da adı akademiyanın, sözün əsl mənasında, tarixinə həkk olan məzunlardandır. Öz bilik və bacarığı, həmçinin ölkə və DİN rəhbərliyinin diqqət və qayğısı ilə gələcəyini quran gənclərimizin sırasında vətənə xidmət etmək, xalqın sədaqətli qulluqçusu olmaq üçün vargücünü əsirgəmir. Məsuliyyəti, nizam-intizamı ilə özündən sonra gələnlərə nümunədir polis baş leytenantı Zabil Qurbanov.**



Redaksiyamızın tapşırığı ilə Akademiyanı fərqlənmə diplomu ilə bitirənlərin axtarışına çıxdım. Və beləcə, onlarla xidmət başındaca görüşdüm, söhbətləşdim və yazılar ərsəyə gəldi...

Görkəmləri, yaşları dəyişsə də münasibətləri, səmimiyyətləri dəyişməmişdi. Əsas məqam isə təcrübəli mütəxəssis kimi özlərini sübut etmələri idi. Bunu çalışdıqları orqanların rəhbərləri də etiraf edirdilər...

"Polis polkovniki Muradəli Babayev təyinatdan sonra məni ilk dəfə qəbul edəndə dedi ki, burada vətəndaş hiss etməməlidir ki, məmurun kabinetinə gəlir. Gərək o, səmimiyyətini görüb səni öz doğması bilsin, üzləşdiyi problemə çarə tapılacağına ümidi, inamı olsun. Gördüyün işlərdə haqqa söykənsən, ədalətli olsan həm öz adını, həm də polisin adını ucaldarsan. O gündən həmin fikirlər mənim həyat devizim olub".

Zabil Qurbanova ünvanladığım ilk suala cavabı da maraqlı oldu. Vəkil olmaq istəyirmiş. Lakin atasının: "Mən əynimdəki mundiri nə vaxtsa soyunacam, ancaq, təəssüf edirəm ki, onu məndən sonra bu ocaqda geyinən olmayacaq" fikrindən sonra söz verib ki, bu yolun davamçısı olsun. Gedəcəyi yolun heç də asan olmayacağını yaxşı bilirdi. XXI əsrin Azərbaycan Polisi həm savadlı olmalıdı, həm də güclü. Qəbul üçün sənədlərini hazırlayanda dostlarından bir neçəsi Akademiyada oxumağın çətin olduğunu desələr də israrlıydı. Ən yüksək balı toplamaq üçün gecəsini-gündüzünə qatdı. Və 648 balla kursant oldu.

"Akademiyada oxumaq çətindir. Amma baxır kimə? Oxumaq istəməyənə, canını əziyyətə verməyənə"...

Ona bu qısa zaman kəsiyində xidmətdə üzləşdiyi çətinliklərlə bağlı sualım isə, demək olar ki, cavabsız qaldı: "Çətinliyim yoxdur..."

Haqqında oxuduqlarınızdan onun barəsində sizdə müəyyən təəssürat yarandı. Onu bir az da yaxından tanıyaq.

Polis baş leytenantı Z.Qurbanov 1995-ci ildə Bakıda doğulub. 2017-ci ildə DİN-in Polis Akademiyasını bitirib. Hazırda Xətai Rayon Polis İdarəsinin müstəntiqidir.

O, yaxşı bilir ki, müstəntiq üçün nəzəriyyə mütləqdir. Təcrübənin zənginliyi isə vətəndaşlarla ünsiyyətdə, qəbul edilən qərarların təkmilləşməsində mühüm rol oynayır. Yəni nəzəriyyə təcrübəni tamamlayır. Bütün bunlarla yanaşı polis zabiti, müstəntiq ilk növbədə öz hüquqlarını və vəzifələrini dərindən bilməlidir.

Həmkarım qərar qəbul etməkdə tələsmir, əgər icraatında ailə münaqişəsi ilə bağlı sənəd varsa, o zaman polisin barışdırıcı missiyasından çıxış edərək tərəflər arasında barışığa nail olmaq üçün çaba göstərir, tərəfləri maarifləndirir. Söhbət əsnasında dedi ki, bu gün elə ailələr var ki, bir zamanlar boşanmanın bir addımlığında idilər və mənim onlarla fərdi söhbətimdən sonra bu addımı atmaqdan çəkiniblər.

Onun peşəmizdən irəli gələn humanistliyi də diqqətimdən yayınmadı: "Bütün bunları ona görə edirəm ki, həmin ailələrdə böyüyən uşaqlar travma yaşamasınlar, valideynlərinin bir anlıq övkəsi səbəbindən bu kimi faktlar onların psixologiyasında, həyatında ağrılı iz buraxmasın..."

**Həmkarımızın ömür boyu unutmadığı, beynində, ruhunda əbədiləşən bir xatirə var. O da əlaçı diplomunu aldığı günün şəkli, tablosudur...**

*T.Hafiz*

# HAMI SÜLH İSTƏYİR
## UŞAQLAR DAHA ÇOX...

**"Beynəlxalq Sülh Günü". Bu gün hər il ölkəmizdə də sevə-sevə qeyd olunur. Sülh dinlər, dillər arasında heç vaxt sarsılmayan bir körpüdür. Dünyamızı qorumaq üçün sülhə səs verməli, müharibə ocaqlarının alovlanmasının qarşısını almalı, ən ümdəsi, gələcəyimiz olan uşaqlara göylərində hər zaman günəş parıldayan xoşbəxt gələcək ərmağan etməliyik. Ancaq, təəssüflər olsun ki, yaşadığımız minillikdə sülh də təhlükədədir…"**



Bu fikirlər Sumqayıtdakı Qubadlı Rayon Bəhmən Mehdiyev adına 2 saylı məktəbdə "Sülh aylığı"na həsr olunmuş tədbirdə səsləndi.

Qonaqları şagirdlərə təqdim edən məktəbin direktoru Yavər Məmmədov bildirdi ki, hər il ənənəvi olaraq, Ombudsmanın çağırışı ilə keçirilən "İnsan hüquqları aylığı" və "Uşaq hüquqları aylığı" ilə yanaşı, "Sülh aylığı" əhalinin hüquqi maarifləndirilməsi işinə mühüm töhfələr verir, insan hüquqları sahəsində müsbət təcrübə formalaşdırır.

"21 avqust - 21 sentyabr tarixlərində gerçəkləşən, ənənəvi xarakter daşıyan "Sülh aylığı" əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla insan hüquqlarının təbliğinə xidmət edir", -deyən Qubadlı RPŞ-nin rəisi, polis polkovniki Bəhruz Cabbarov bu gün ölkə Prezidenti tərəfindən həyata keçirilən siyasətin əsasını sülhsevər prinsiplərin təşkil etdiyini qeyd etdi.

Vurğulandı ki, bu gün müharibədən əziyyət çəkən Azərbaycan sülhün bərqərar olmasına, münaqişənin beynəlxalq hüququn prinsipləri çərçivəsində həllinə çalışır, dünya dövlətlərini, beynəlxalq təşkilatları bu həqiqətlərə hüquqi qiymət verməyə, sülhə aparan yolda birliyə və əməkdaşlığa dəvət edir.

Şəxsi heyətlə iş üzrə rəis köməkçisi, polis mayoru Tural Namazov, xidmət üzrə rəis müavini, polis polkovnik-leytenantı İlham Rəsulov və polis leytenantı Rauf Qələndərov çıxışlarında vətənimizin müstəqilliyinin ilk illərində böyük sınaqlarla üzbəüz qaldığını, xüsusən də o çətin dövrdə uşaqların ağrılı-acılı həyatından söhbət açdılar.

"Azərbaycan dünyada sülh carçısıdır, lakin işğal olunmuş ərazilərimizi düşməndən azad etmək üçün biz bundan sonra da bütün gücümüzü səfərbər etməliyik" ki, həmin torpaqlarda bayrağımız dalğalansın, himnimiz oxunsun fikri ilə tədbirə yekun vuran polis polkovniki Bəhruz Cabbarov o günün çox da uzaqda olmadığına əminliyini bildirdi.

Sonra məktəblilər insanları sülhə çağıran şeirlər söylədilər.

*H.Təmirov,*
*polis mayoru*

# MARAQ DÜNYASI



Gözdən əlillərin yazıb-oxuması üçün «Brayl əlifbası»nı 1824-cü ildə 15 yaşlı fransız Lui Brayl ixtira etmişdir.

***

Plastilin ilk dəfə divar kağızları üçün yapışqan istehsal edən Kleo Makvikerin nəvəsinin sayəsində icad olunub. Balaca qızcığaz babasına onunla oynamaq istədiyini dedikdə, K.Makviker yapışqana lazımi qatqılar, rəng əlavə etmiş, zərərli maddələri isə çıxarmışdır.

***

Amerika məktəblisi Cek Andraka 15 yaşında mədəaltı vəzin erkən mərhələdə xərçəng xəstəliyinin diaqnozu üçün test sistemin prototipini yaratmışdır. Bu test hazırda mövcud olanlardan 168 dəfə sürətli, 26 min dəfə ucuz, həm də 100 faiz dəqiqdir.



***

Meyvəli buzu və taxta çöp üzərində dondurmanı ilk dəfə 11 yaşlı amerikalı Frenk Epperson icad etmişdir.

***

Soyuqdan qoruyan qulaqcıqları 15 yaşlı amerikalı Çester Qrinvud 1873-cü ildə ixtira etmişdir.





***

Qarda yeriyən ilk maşını 1922-ci ildə 15 yaşlı kanadalı Jozef-Arman Bombardye hazırlamışdır.

***

Alyaskanın bayrağını 1926-cı ildə 13 yaşlı yeniyetmə Benni Benson tərəfindən yaradılmışdır.

*Ə.Ruhiyyə*

# BU FƏNLƏRİ YOL POLİSLƏRİ DƏ BİLMƏLİDİR

**Şəxsi heyətin fiziki hazırlığının daha da artırılması əlbəyaxa döyüş növlərinə daha yaxşı yiyələnmələri məqsədi ilə sentyabrın 10-dan 13-dək daxili işlər orqanlarının Yol Patrul Xidməti əməkdaşları ilə növbəti təlim məşq toplantısı keçirilib.**



Ölkəmizin paytaxtında Gəncə, Mingəçevir, Şirvan, Sumqayıt şəhərlərində keçirilən bu toplantılarda silahsız özünü müdafiə və əlbəyaxa döyüş növləri üzrə təlimlərin aparılmasının başlıca prinsipləri açıqlanıb, hər bir polisin müvafiq proqrama yiyələnməsinin əhəmiyyəti nəzərə çatdırılıb.

Sonra şəxsi heyətin həmin fənləri mənimsəmələrinin səviyyəsinin yoxlanılması məqsədi ilə təlimdə iştirak edən 191 əməkdaş öz bacarıqlarını nümayiş etdirib.

İdman təlimi bölməsinin rəisi, polis polkovnik-leytenantı Mülayim Xıdırov polis orqanlarında çalışan əməkdaşlarla əlbəyaxa döyüş növləri üzrə təlim məşqləri aparılmasının vacibliyindən danışaraq qeyd edib ki, il ərzində davam edəcək təlim müddətində idman cəmiyyətinin təcrübəli əməkdaşları fiziki hazırlıq məşğələlərinin səmərəsinin artırılması barədə belə tədbirləri davam etdirəcəklər.

Bu tədbirlərin keçirilməsində DİN İdman Cəmiyyətinin əməkdaşları-polis polkovniki Firudin Tağıyev, polis polkovnik-leytenantı Mahir Əhmədov, polis mayoru Zaur Məcidov, polis kapitanı Tunc Alişan, polis baş leytenantı Rüstəm Ağamalıyev, polis baş serjantı Hakim Hacıyev xüsusi fəallıq göstəriblər.

# GƏNCLƏRƏ DƏYƏRLİ TÖVSİYƏLƏR VERİLİB

**Bu gün cəmiyyətimizdə polis veteranlarının da təcrübəsinə, yardımına böyük ehtiyac var. Məktəblərdə, əmək kollektivlərində narkomaniya, erkən nikah və dini radikalizm mövzusunda keçirilən tədbirlərdə veteranların hüquqi maarifləndirmə sahəsindəki fəaliyyəti çox vacib və qərəzlidir.**

Lənkəran Şəhər-Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə rayonda fəaliyyət göstərən dini icmaların nümayəndələri ilə görüş keçirilib.

Rayonun Lej kənd məscidində təşkil olunan görüşdə ŞRPŞ-nin Veteranlar Şurasının sədri Bəxtiyar Vəliyev, şöbənin əməkdaşları, həmçinin rayonda fəaliyyət göstərən dini icmaların nümayəndələri və rayon ağsaqqalları iştirak ediblər.

B.Vəliyev belə görüşlərin keçirilməsinin əhəmiyyətindən danışıb. O, bildirib ki, din xadimləri cəmiyyətdə milli-mənəvi dəyərlərimizin qorunması,dini biliklərin və dəyərlərin təbliği, insanlarda mənəviyyatın saflaşması üçün fəaliyyət göstərirlər. Bununla da onlar ölkəmizdəki tolerantlıq şəraitinə öz töhfələrini verir, minilliklər boyu cəmiyyətimizdə, multikultural dəyərlərin qorunub saxlanmasına kömək etmiş olurlar.

Tədbirdə narkomaniyanın doğurduğu problemlərdən və yaratdığı fəsadlardan da geniş bəhs edilib, bu bəlaya qarşı hüquq-mühafizə orqanlarının, o cümlədən polisin apardığı qətiyyətli mübarizədən danışılıb.

***Zeyni Hüseynov,***
***polis serjantı***

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ TİBB İDARƏSİNİN MÜALİCƏ – PROFİLAKTİKA MÜƏSSİSƏLƏRİNDƏ VAKANT OLAN HƏKİM VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR

Elan olunmuş müsabiqədə dövlət ali təhsil müəssisələrində narkoloq, uroloq, otolorinqoloq, travmatoloq, psixonevroloq, neyrojərrah və provizor ixtisası almış, tibb və təhsil müəssisələrində həmin ixtisas üzrə rezidentura keçmiş, ixtisas üzrə azı 5 il praktiki təcrübəyə malik, yaşı 35-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), özü və yaxın qohumları məhkum olunmamış, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2018-ci il **sentyabr ayının 15-dən oktyabr ayının 15-dək http://www.mia.gov.az/index.php?/az/content/29942 ünvanında** yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin **Tibb İdarəsinin internet medical@mia.gov.az ünvanına** göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-şəxsiyyət vəsiqəsi;*
*-ali təhsil haqqında diplom;*
*-hərbi bilet (kişilər üçün);*
*-əmək kitabçasının surəti*

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək ilkin olaraq, 500 manat aylıq təminat xərcliyi, eləcə də göstərdiyi pullu xidmətə görə əlavə pul vəsaiti ödəniləcək, habelə onların qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

Əlavə məlumat almaq üçün əlaqə telefonları:

**012-590-20-59**
**012-590-20-94.**

***DİN-in Baş Kadrlar İdarəsi***

# HİKMƏT XƏZİNƏSİNDƏN

◆ Məni də bir ana doğmadımı? Türk anaları hələ neçə-neçə Mustafa Kamallar dünyaya gətirəcəklər.

◆İnsanın ləyaqəti və mahiyyəti çətinliyə düşəndə bilinər.

◆Dövlət iki şeydən sarsılır-günahkar cəzasız qalanda günahsıza cəza veriləndə.

◆Əgər insan uğur qazana bilməsə də, uğur üçün əlindən gələni edibsə, heç vaxt onu qınamaq fikrinə düşməyin.

◆Bil ki, sənin lehinə söz danışan, sənin əleyhinə də danışar, sənə söz gətirən, səndən də söz aparar.

◆Ən yaxın dostlarınızla da danışarkən nitqinizə müəyyən sərhəd qoyun.

◆Yalan söz deməyə adət etmə, günahlar yalandan başlanır.

◆İnsanlara layiq olmadıqları sifəti verib tərif etmək təhrif etmək deməkdir.

◆Bəziləri "gülün tikanı var"- deyə gülümsünürlər, amma "tikanın gülü var" deyib sevinmək lazımdır.

◆Dünyanın ən böyük alimi təcrübədir, amma biz bu həqiqəti uzun illər dərk edə bilmirik, dərk edəndə isə artıq iş- işdən keçmiş olur.

◆Dost yaman gündə, qəhrəman savaş meydanında, qadın kasıbçılıqda, qohum başın qovğaya düşəndə sınanar.

◆Pul ağıllı adamlar üçün vasitə, axmaqlar üçün məqsəddir.

◆Axmaqları söz yox, bədbəxtlik ağıllandırar.

***Çapa hazırladı: T.Aytən***

# DÜNYAYA PƏNCƏRƏ

Rusiya Prezidenti Vladimir Putinin imzaladığı fərmana əsasən, RF Yol Hərəkətinin Təhlükəsizliyi Dövlət Müfəttişliyinin Əsasnaməsinə dəyişikliklər edilib. Həmin dəyişikliklərdən biri qayda pozuntusuna yol vermiş avtomobillərdən nömrə nişanlarının açılması ilə bağlıdır. Bundan sonra yol polislərinə nömrə nişanlarını avtomobildən açmaq qadağan edilir. Bununla birlikdə, polis əməkdaşları qanunla nəzərdə tutulmuş hallarda nəqliyyat vasitələrinin istifadəsini qadağan edə bilərlər.

*****

***Gürcüstanda Daxili İşlər Nazirliyi şəxsin narkotik vasitənin təsiri altında olub-olmadığını yoxlamaq üçün yeni növ cihazlar gətirəcək.***

***Bunu DİN-dən bildiriblər.***

***Bir müddət əvvəl Gürcüstanda narkotik vasitə sayılan marixuananın istifadəsi barədə yeni qanun layihəsi hazırlanıb. Yenilik ondan ibarətdir ki, bundan sonra Gürcüstanda marixuananın ticarəti qadağan olunmuş kimi saxlanılsa da, ondan istifadə qadağan deyil. Belə ki, hər bir şəxs öz evində və ya ictimai sayılmayan yerlərdə marixuanadan istifadə edə bilər.***

***Gürcüstanda marixuananın tibbi və kosmetik təyinatlı ixracı məqsədilə istehsalına icazə verilməsi məsələsi də nəzərdən keçirilir. DİN-in məlumatına əsasən, bununla bağlı qanunvericiliyə düzəlişlər layihəsi hazırlanıb. Qeyd edilib ki, istənilən halda ölkə daxilində marixuananın satışı cinayət məsuliyyəti yaradır.***

***Yerli mətbuatın məlumatına görə, ölkədə marixuananın istehsalı lisenziyalaşdırılmış fəaliyyət növü elan olunacaq və lisenziya müsabiqə yolu ilə veriləcək.***

*****

Cari ilin ötən 6 ayı ərzində İranın Buşehr şəhərində 11 ton narkotik maddə ələ keçirilərək məhv edilib. Bu barədə məlumat yayan şəhərin polis rəisi Ərəsten Türkməm Əfqanıstanda narkotik maddələrin istehsalının artdığını bildirib. Onun sözlərinə görə, qaçaqmalçılıq yolu ilə Əfqanıstandan İrana qanunsuz narkotik maddə keçirməyə çalışan 11 avtomobil sürücüsü həbs edilib. Avtomobillərə baxış zamanı külli miqdarda narkotik maddə tapılıb. Son altı ayda hər biri 5 və 7 nəfərdən ibarət olan 21 qrup zərərsizləşdirilib. Bir çox hallarda polis və sərhədçilərlə qaçaqmalçılar arasında silahlı toqquşma baş verib.

Polis rəisinin sözlərinə görə, ötən ilin 6 ayında 6 ton narkotik maddə müsadirə olunmuşdusa, cari ilin müvafiq dövründə bu rəqəm 11 tona yüksəlib. Qaçaqmalçılar İran ərazisindən tranzit kimi istifadə edərək narkotik maddələri Avropaya daşımağa cəhd göstərirlər.

*****

***Birləşmiş Ərəb Əmirliklərinə gəlmiş hollandiyalı turist qadın polisin nümunəvi davranışı nəticəsində islam dinini qəbul edib. Əbu-Dabi polisinin tolerantlığından və sivil yanaşmasından təsirlənən Kristina Dafano müsəlman olmaq qərarına gəlib və kəlmeyi-şəhadətini söyləyəndən sonra adını dəyişərək Nura edib.***

***Turist böyük Şeyx Zayed məscidi ilə maraqlanaraq oraya getmək istəyibmiş. Polis qadını ora yönəldib, həmçinin ona islamda dözümlülüklə yanaşı dinc yaşamaq ideyaları ilə tanışlığı üçün məscid idarəsi ilə əlaqə saxlayıb.***

***Natiq Cavadov***

# Sentyabrın 12-dən 18-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 699 cinayət qeydə alınmış, onların 119-u «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 95 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 207 nəfər, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 3 nəfər, borclu şəxs qismində axtarışda olan 147 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 23 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 14 nəfər ölmüş, 42 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 47 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 192 nəfər saxlanılmışdır.

# GÜRCÜSTANDA MARİXUANANIN BECƏRİLMƏSİNƏ VƏ İSTEHSALINA ETİRAZ EDİRLƏR

**"Gürcüstan Pravoslav kilsəsi, onun rəhbərliyi, yepiskoplar, digər dindar şəxslər və xalq hökumətin marixuananın tibbi və kosmetik məqsədlər üçün istehsalı ilə bağlı hazırladığı qanun layihəsinə qarşı eyni fikirdədir".**

Bu sözlər Gürcüstan Pravoslav kilsəsinin sentyabrın 18-də yaydığı bəyanatda əksini tapıb.

Bəyanatda deyilir ki, kilsə marixuananın bütün növlərinin yetişdirilməsinə və istənilən məqsədlər üçün istifadəsinə qarşıdır: "Bəzi sosial şəbəkələrdə guya tək-tək din xadimlərinin bu qanuna qarşı olması barədə fikirlərin də heç bir əsası yoxdur. Pravoslav kilsə, eləcə də, başda patriarxlıq olmaqla, bütün yepiskoplar, dindarlar marixuananın bütün növlərinin istehsalına və istifadəsinə etiraz edir".

"Marixuananın hər hansı bir növünün istənilən məqsədlərlə əkilməsi, becərilməsi və istehsalı bütövlükdə əhali üçün çox ağır nəticələrə səbəb olacaq", - deyə bəyanatda vurğulanır.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

NBPİ Dəmiryol Nəqliyyatında Polis İdarəsinin rəisi Yaşar Nuriyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Xətai RPİ-nin rəisi Muradəli Babayev və şəxsi heyəti Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Gədəbəy RPŞ-nin rəisi Məhərrəm Quliyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Qobustan RPŞ-nin rəisi Etibar Babayev və şəxsi heyəti Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Beyləqan RPŞ-nin rəisi Rəşid Piriyev və şəxsi heyəti Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Tovuz RPŞ-nin rəisi Şirzad Əsgərov və şəxsi heyəti Elsevər Aslanova qardaşı

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10.279
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:30